# AZƏRBAYCANIN ƏTRAF MÜHİT PROBLEMLƏRİ, BİOLOJİ MÜXTƏLİFLİYİN QORUNMASI, EKOLOJİ MONİTORİNQ MƏSƏLƏLƏRİ

**Arzu Seyidova**

*AR ETSN Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsi, Bakı*
*x.office@eco.gov.az*

Ətraf mühitin mühafizəsi qlobal bir anlayışdır və zamanın tələbləri ilə yaranmışdır. Digər müstəqil dövlətlər kimi, Azərbaycan Respublikasında da ətraf mühitin mühafizəsi və ekoloji problemlər daim diqqət mərkəzində olmuşdur. Azərbaycanın hərtərəfli inkişafında xüsusi rolu olan Heydər Əliyev təbiətin qorunmasına, daha da çiçəklənməsinə və inkişafına xüsusi əhəmiyyət vermiş, onun təbiiliyinin və toxunulmazlığının qorunmasının zəruriliyini hər zaman vurğulamışdır. O, təbiətin hər bir ünsürünün qorunub saxlanmasını, onun dirçəldilməsinin və zənginləşdirilməsinin vacibliyini qeyd edir və bu istiqamətdə birgə tədbirlərin görülməsini vurğulayırdı. Məhz Heydər Əliyevin rəhbərliyi altında ətraf mühitin mühafizəsi sahəsində ölkəmizdə gələcəyə hesablanmış məqsədyönlü ekoloji siyasət həyata keçirilmişdir.

Azərbaycanda müstəqilliyin ilk illərində sovet dövründən yığılıb qalmış və getdikcə daha da kəskinləşən ekoloji problemlərin həllinə yönələn siyasətin aparılması cəhdləri olsa da, həmin dövrdə ölkədə yaranmış dərin böhranlar və hakimiyyətsizlik şəraitində məqsədyönlü ekoloji siyasətin həyata keçirilməsi qeyri-mümkün olmuşdur. Belə ki, neftin, qazın çıxarılması, nəqli və emalı nəticəsində torpaq səthinin neft və neft məhsulları ilə çirklənməsi, çirkab sularının qeyri-qanuni axıdılması, nərə balığının tükənmiş ehtiyatları, atmosfer havasının kəskin çirklənməsi, pestisidlərin və gübrələrin həddən artıq çox istifadəsi və s. kimi ekoloji pozuntu halları müşahidə edilirdi. Heydər Əliyev Azərbaycan Respublikasında Prezident seçildikdən sonra qeyd olunan nöqsanların aradan qaldırılmasını, ətraf mühitin mühafizəsini yüksəltməyi

və təbii sərvətlərdən səmərəli istifadəni təmin etməyi qarşısına məqsəd qoymuş, ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün bir sıra mühüm qanunlar, hüquqi sənədlər və dövlət proqramları qəbul etmişdir.

Belə ki, mətni onun rəhbərliyi altında hazırlanmış və 12 noyabr 1995-ci il tarixində qəbul edilmiş, insanın, onun huquq və azadlıqlarının ali dəyər olmasından çıxış edən Azərbaycan Respublikasının Konstitusiyası bu strategiyanın mahiyyətini əks etdirməklə, hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququnu (maddə 39), eləcə də ölkədə ətraf mühitin qorunmasının hər kəsin borcu olduğunu təsbit etmişdir (maddə 78). Bundan başqa, Konstitusiyada ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq, ekoloji huquqpozma ilə əlaqədar hər kəsin sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüquqları da təsbit olunmuşdur.

Ölkə üzrə ekoloji təhlükəsizliyin təmin olunmasında əhəmiyyətli rolu olan "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu Heydər Əliyev tərəfindən verilmiş 1999-cu il 08 iyun, 678-IQ nömrəli Fərman əsasında qüvvəyə minmişdir. Qanunun vacibliyini şərtləndirən əsas amil onun ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması, təbii ehtiyatların səmərəli istifadəsi və bərpası, ətraf mühitin mühafizəsi sahəsində qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi məqsədi daşımasıdır.

Heydər Əliyevin reallaşdırdığı strateji kursda ətraf mühitin mühafizəsi, bioloji müxtəlifliyin qorunması sahəsində beynəlxalq müqavilələrə qoşulmağa da xüsusi yer verilmiş, onun rəhbərliyi altında Azərbaycan Respublikası çoxlu sayda beynəlxalq konvensiyalara qoşulmuş, müvafiq protokollar imzalamışdır. Buna misal olaraq, "Bitkilərin mühafızəsi haqqında", "Biomüxtəliflik haqqında", "Nəsli kəsilmək təhlükəsi altında olan təbii flora və fauna növlərinin beynəlxalq ticarəti haqqında", "Səhralaşmaya qarşı mübarizə haqqında" və s. beynəlxalq konvensiyaları göstərmək olar.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev tərəfindən ölkədə bir sıra struktur islahatlarda aparılmış, ətraf mühitin qorunması və təbii ehtiyatlardan istifadənin ayrı-ayrı aspektləri ilə məşğul olan və fəaliyyətlərində qismən bir-birini təkrarlayan bir sıra komitə və birliklər ləğv edilərək, onların bazasında 23 may 2001-ci il tarixli 485 saylı Fərman əsasında AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır. Nazirlik ölkəmizin ən ciddi ekoloji problemlərinin həllinə cəmiyyətin, qeyri-hökümət və beynəlxalq təşkilatların diqqətini cəlb etməklə dövlətin müəyyən etdiyi ekoloji siyasəti ardıcıl və qətiyyətlə yerinə yetirir. Ətraf mühitin qorunmasında, təbii ehtiyatların, faydalı qazıntıların, su, torpaq və havanın, meşələrin və biomüxtəlifliyin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə edilməsi ilə əlaqədar bir sıra mühüm əhəmiyyətli tədbirlər həyata keçirməkdədir.

Bildiyimiz kimi, Xəzər dənizi Azərbaycanın və bütövlükdə regionun ekobioloji mühitinin vacib bir komponentidir. Bu mənada Xəzərdə baş verən hər hansı bir dəyişiklik regionun ekosistemınə təsirsiz ötüşmür. Bundan çıxış edən Heydər Əliyev Xəzərin ekoloji problemlərinin həlli sahəsində sahilyanı ölkələrin əməkdaşlığına böyük əhəmiyyət verərək, onun təbii sərvətlərindən istifadə zamanı həm müasir texnologiyaların tətbiqinin, həm də dənizin ekologiyasının təmin edilməsinə xüsusi diqqət yetirirdi. Məhz onun belə qətiyyətli mövqeyi sayəsində Xəzərin nefti və qazının (digər ehtiyatlarının) istismarı və daşınması ilə bağlı Azərbaycanın xarici şirkətlərlə imzaladığı bütün müqavilələrdə ətraf mühitin qorunması vacib bir şərt, prinsip kimi öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, ekoloji problemlərin həlli istiqamətində ilkin mərhələ ekoloji monitorinq işlərinin aparılmasıdır. Belə ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən dəniz və onun ətraf mühitinin çirklənmədən qorunması üzrə kompleks monitorinq tədbirləri həyata keçirilir. Bu tədbirlərin məqsədi Xəzər dənizinin, dənizətrafı mühitinin çirklənmədən qorunması, o cümlədən Xəzər dənizinin bioloji ehtiyatlarının mühafizəsi, bərpası, davamlı və səmərəli istifadə edilməsindən ibarətdir.

Qeyd olunan monitorinq tədbirləri yalnız Xəzər dənizi və onun akvatoriyası üzrə deyil, həmçinin ölkə ərazisində ətraf mühitə atılan, axıdılan zərərli tullantıların atmosfer havası, torpaq, su mühitinə təsirinin öyrənilməsi, ətraf mühitə antropogen təsirin kəmiyyət və keyfiyyət göstəricilərinin müəyyən edilməsi və formalaşan tullantıların mövcud qanunvericiliyin tələblərinə uyğun idarə olunmasını müəyyənləşdirmək istiqamətində də həyata keçirilir.

Heydər Əliyev daim vurğulayırdı ki, Azərbaycanın sabit inkişafı ekoloji problemlərin həllindən çox asılıdır. Onun ölkəmizdə ekologiyanın qorunması ilə bağlı əsasını qoyduğu ənənə bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, 2010-cu ilin ölkədə "Ekologiya ili" elan edilməsi, iqlim dəyişikliyinə qarşı dünya ölkələri ilə birgə mübarizənin aparılması, neft və digər istehsalat tullantıları ilə çirklənmiş torpaqların, lay suları altında qalan ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində

tədbirlərin davam etdirilməsi insanların sağlam ətraf mühitdə yaşamasına və ətraf mühitin mühafizəsinə öz töhfəsini verməkdədir.

Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına – COP29-a ev sahibliyini 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu missiyaya verilən dəyərin təsdiqidir.

Cari il üçün Nazirliyin qarşısında duran başlıca vəzifələrin birincisi ölkədə ardıcıl və məqsədyönlü şəkildə ekoloji siyasətin aparılması, ikincisi, "yaşıl iqtisadiyyat"ın inkişaf etdirilməsi və ətraf mühitin çirklənməsinin qarşısını alan texnoloji proseslərin modernləşdirilməsi, üçüncüsü, vətəndaşların bu sahədəki proseslərin birbaşa və daha fəal iştirakçısına çevrilməsi və bu istiqmətdə maarifləndləndirmə tədbirlərinin ardıcıl olaraq davam etdirilməsi, dördüncüsü, ətraf mühitin, su obyektlərinin və təbii ehtiyatların monitorinqinin daha intensiv şəkildə həyata keçirilməsindən ibarət olduğunu gostərmək olar.

Heydər Əliyevin uzaqgörən siyasəti, ekologiya sahəsinə verdiyi töhfələr, o cümlədən Ölkə Başçısı İlham Əliyevin bu istiqamətdə gördüyü tədbirlər nəticəsində bu gün cəmiyyətimizdə ətraf mühitə laqeyd münasibətin aradan qaldırılması bizə ruh verir, addımlarımızı daim möhkəmləndirir. Artıq Azərbaycanda ekologiya və ətraf mühitin qorunması sahəsində görülən işlər, dövlət siyasəti bir çox ölkələr üçün nümunə hesab oluna bilər.